# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Kollegiyasının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 23 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin səkkizinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2009-cu il 06 iyul tarixli 169-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 16-cı hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Kollegiyasının təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 23 nömrəli Qərarının 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin kollegiya üzvlərinin sayı 5 (beş) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi Aparatının rəhbəri

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi Aparatının İstehsal və xidmət statistikası şöbəsinin müdiri

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi Aparatının Əhali, əmək, sosial və həyat keyfiyyəti statistikası şöbəsinin müdiri”.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 24 ” “ iyul ” 2026-cı il

№ 27